# Ruhumuzun Vətən nəğməsi – yurd sevgimizin Şuşa zirvəsi

***Heç bir qüvvə bundan sonra bizi Şuşadan, Qarabağdan ayrı sala bilməz!***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

***Hacıqabul–Füzuli magistralından başlayan Zəfər yolu Daşaltı dərəsindən keçərək, Xankəndiyə uzanan Laçın dəhlizinə çatıb, buradan Şuşaya daxil olur. İndi “Laçın dəhlizi” dediyimiz və Rusiya sülhməramlılarının nəzarət etdiyi bu yolu 30–40 il əvvəl əriş-arğac elədiyimiz vaxtlarda bu yerlərdə hələ qan-qada yox idi, xırda-para əyər-əskiklər də gözlərimizə gözəl, nizamlı görünürdü. Müharibə, savaş alovlarının nə demək olduğunu yaşlıların söhbətlərindən, kinolardan eşidib-görərdik.***






Qarakilsədə (Sisyanda) bu yolun ətəyindən tutub İşıqlı dağına sığınan kəndimizdən çıxır, Laçından, Şuşadan, Xankəndidən, Xocalıdan, Əskərandan, Ağdamdan, Bərdədən keçib Yevlaxa çatır, buradan da ölkənin baş magistralı ilə Bakıya gəlirdik. Avtobusla birgünlük bu uzun marşrutun Gorusdan Ağdama qədər olan hissəsində dərin dərələrin başı ilə, sıldırım qayalıqların döşü ilə irəlilədikcə cənnət Qarabağın əsrarəngiz gözəlliklərinə heyranlıqla baxır, təbiətin sirrinə-sehrinə valeh olurduq.

Amma ağlımıza gəlməzdi ki, bir gün düşmənin nəfəsi və nəfsi ilə bu gül-çiçəkli yamaclar, atlas meşələr qarsalanacaq, azman dağlar-dərələr od tutub yanacaq, abad kəndlər-şəhərlər kərpic-kərpic, tir-tir, qapı-pəncərə qarışıq sökülüb-talanacaq, yerlərində xarabalıq qalacaq. O zaman haradan biləydik ki, çox keçməyəcək qaradonlu qarı düşmən kabus kimi bu yerlərin üstünə yeriyəcək, bu dağlarda həyat nişanəsinin, insan məskəninin izi-tozu qalmayacaq, Azərbaycanı isə başdan-başa köçkünlük, didərginlik dalğası bürüyəcək.

...Dünyanın ən böyük haqsızlıqlarından, ən dəhşətli qəsdlərindən biri Şuşanın işğal olunması, düşmən tapdağı altına düşməsi oldu. Həm də namərdliyin, xəyanətin misilsizliyi özünü onda göstərmişdi ki, Ermənistan bu kəmfürsətlikdən bir neçə saat öncə ataşkəsə əməl edəcəyi, sülh danışıqları aparacağı ilə bağlı Tehran danışıqlarında Azərbaycanla riyakar bir “razılığa” gəlmişdi. Lakin hər zaman olduğu kimi, işğalçı bu dəfə də əxlaqsız və şərəfsiz xislətini ortaya qoydu. İnsanlıq simasını itirmiş yağı 1992-ci il mayın 7-dən 8-nə keçən gecə qədim qala şəhərimizə soxulub onu murdar caynağına keçirməklə, xəbisliyini və rəzilliyini bir daha dünyaya göstərdi.

Şübhəsiz, bu qəfil işğala o zaman Azərbaycanda dövləti idarə etmək səriştəsi olmayan, öz maraqlarını düşünən, məkrli düşmənə asanlıqla inanan rəhbərlik xəyanətkarcana fürsət vermişdi. Onların vəzifə hərisliyi nəticəsində hökm sürən dərəbəylik yaranmaqda olan hərbi qüvvələrin, özünümüdafiə dəstələrinin vahid komandanlıqda birləşməsinə imkan vermədi. Məqsədli şəkildə Şuşanın tezliklə süqut edəcəyi barədə yayılan şayiələr də şəhəri qoruyan əsgərlərimizin, eləcə də yerli əhalinin döyüş ruhunu zədələdi. Belə cinayətkarcasına məsuliyyətsizlik, bağışlanılmaz mənəvi aşınma isə ermənilərin bu alınmaz qalanı qəfil həmlədə ələ keçirməsini asanlaşdırdı.

Beləliklə, onlarla əsgərimizin şəhidlik zirvəsinə yüksəldiyi qeyri-bərabər Şuşa döyüşü qəddar, insan qanına susayan düşmənin bu təbiət incisini, tarixlər yadigarını tapdaq altına salması ilə nəticələndi.






***

Azərbaycan 1992-ci il 8 may uğursuzluğundan 2020-ci il 8 noyabr qələbəsinədək çox uzun, çox ağrı-acılı bir yol qət etdi. Bu müddətdə Şuşasız neinki şuşalıların, heç bu şəhərin adını eşidib üzünü görməyənlərin də üzü gülmədi. Çünki Şuşa tək bu qala-şəhərdə dünyaya göz açanların yurd-yuvası deyildi, həm də Azərbaycanın başının tacı, xalqımızın ləyaqət, şərəf rəmzi, mədəniyyət paytaxtımız idi...

Şuşanın əsirlik həyatı başlayan gündən bu qala yadların-yağıların əsarətində inildəyib-sızladı. Şəhərin bünövrəsini qoyan Pənahəli xanın tikdirdiyi məscid və mədrəsə, Qara Böyük Xanım bürcü, Hacıqullar malikanəsi, Xurşudbanu Natəvanın, Əsəd bəyin evləri, ikimərtəbəli karvansara... tarixi önəmi olan, xalqımızın varlığını andıran hər bir tikili yandırıldı, xarabalığa çevrildi. Şuşa isə “döz bu dərdə dözənəcən” deyib 29 il 6 aylıq həsrət yanğısı ilə xilaskarının yolunu gözlədi...

***

Əsarətdə qalan bu müqəddəs məkanın dərdi-ələmi hər il yazın indiki günlərində ərşə qalxırdı. Yağı-yağmaçının hər il mayın 8-də burada keçirdiyi alçaldıcı “qələbə” vur-çatlasını ilə Şuşanın ağır yaralarına bir daha duz səpilirdi. Düşmən Şuşanı gələcəkdə, hətta Qarabağın paytaxtı elan etmək, qondarma rejimin parlamentini bu əzəli, tarixi şəhərimizə köçürmək iddiasını səsləndirməklə bizə acıq-qıcıq verirdi. Miskin Paşinyan böyür-başındakılarla birlikdə tez-tez Qarabağa gəlib burada kef məclisləri qururdu, hətta ermənisayağı yallı da gedirdi, “Qarabağ Ermənistandır, nöqtə” kimi sərsəm bəyanatlar verirdi. İşğalçı bu hərəkəti ilə xalqımızda bir ümidsizlik yaratmaq, inadımızı qırmaq, inamımızı sarsıtmaq məqsədi güdürdü. Lakin İlahi ədalət namərd qəsbkarın bütün niyyətlərini, istəklərini alt-üst etdi, arzularını ürəyində qoydu.

***

...Şuşa qələbəsi, Şuşa uğuru haqqında 2020-ci ilin Vətən müharibəsi başa çatandan indiyədək çox yazılıb. Azərbaycan əsgərinin bu qala-şəhəri havadan bombalamadan, tanksız-topsuz, əlbəyaxa döyüşlə qaytarması misilsiz qəhrəmanlıq kimi dəyərləndirilib. Bununla da Şuşada gedən döyüş Azərbaycan Ordusunun zəfər salnaməsinə ən parlaq səhifə kimi həkk edilib.

Zəfər yolu ilə Şuşaya yaxınlaşdıqca savaşın heyrətamizliyi barədə aydın təsəvvür yaranır. Bu yeni salınan magistralın sağ-soluna baxdıqca qəhrəman əsgər və zabitlərimizin şəhərin ətəklərinə qədər duman içində, göz-gözü görməyən çətin havada, keçilməz cəngəllikləri aşaraq, dərin dərələrdən, sərt yoxuşlardan qalxaraq, bəzən pusquya düşərək, ağır itkilərə məruz qalsalar da inadlarından dönməyərək necə irəlilədikləri aydın təsəvvür olunur. Nəhayət, uzun bir yolçuluqdan sonra zirvəsinə onlara gəl-gəl deyən qala-şəhərə sıldırımlıqlara dırmaşmaqla düşmənin zirehli texnika və ağır toplarla silahlanan iki mindən çox əsgərinə qarşı küçə savaşına atılmaları gözlərimiz önünə gəlir. Elə bu məqamda Prezident, Ali Baş Komandan İlham Əliyevin Şuşanın alınmasından az sonra “CNN Türk” televiziya kanalına müsahibəsində dediyi sözlər yada düşür: “İndi siz Şuşaya da gedəcəksiniz, görəcəksiniz ki, Şuşanın alınması bir möcüzə sayılır”.

Bu sözlər, həm də belə bir ağır şəraitdə döyüş əzmkarlığı, mübarizliyi, qəhrəmanlığı ilə dünyaya səs salan oğullarımızın–bizim xoşbəxt, bəxtəvər yaşamağımız üçün, başımızı dik tutub dünyaya haqq sözü çatdırmağımız üçün canlarından keçən şəhidlərimizin, ölümün gözünə dik baxmış, bir çoxu ağır yaralar almış qazilərimizin tarixi ədaləti necə bərpa etdikləri, Vətənə qayıdışı necə həyata keçirdikləri barədə aydın təsəvvür yaradır.

***

...Görəsən, dünyanın hansısa bir ölkəsində xalqın əzilmiş, təhqir edilmiş qürurunun xilası naminə belə qanlı savaş aparılıbmı?!.

Görəsən, daha hansı xalq belə Vətən sevgisinin şahidi olub?!.

Görəsən, əsrlər boyu neçə-neçə müharibəyə şahidlik edən Şuşanın indiki savaşındakı kimi– şəhidi çiyinlərində, yaralını qollarında döyüşə-döyüşə, al qan içində, nəfəsini belə dərmədən dağ yuxarı dik qayalıqlara dırmaşıb qala-şəhərə daxil olanlara, süngü ilə məhəllə-məhəllə, ev-ev döyüşərək, qəsbkara diz çökdürən əsgərlərə başqa harada rast gəlinib?!.

Avtobusumuz Zəfər yolu ilə irəlilədikcə saysız-hesabsız belə suallar düşüncəmə hakim kəsilir və özümdən asılı olmayan qəribə bir vəziyyətə düşür, öyünclü göz yaşlarını saxlaya bilmirəm. Əslində, bu göz yaşları şəhidlərimizin ömürlərinin yarımçıq qırılması, qazilərimizin aldıqları yaralardan əzab çəkmələri ilə bağlı deyil, onların şücaətinin, qəhrəmanlığının daxilimdə doğurduğu sonsuz qürur hissi ilə bağlıdır.

Bu gün işğaldan azad edilən bütün torpaqlarımızda, eləcə də Şuşada hər daş-qaya, hər yol-cığır sanki dil açıb şəhidlərimizin, qazilərimizin, bütünlüklə ordumuzun igidliyindən danışır. Qala-şəhəri küçə-küçə gəzdikcə, evlərin divarlarında qəsbkarın güllə izlərinə baxdıqca, işğal dövründə Şuşada törətdiyi dağıntılara nəzər saldıqca mərd, qorxmaz, cəsur övladlarımızın bizi-xalqımızı faşizmdən xilas etdiyinin heç zaman unudulmayacağı, gələcək nəsillərin yaddaşında yaşayacağı qənaəti təsdiqlənir.

***

İkinci Qarabağ müharibəsində ərazilərimizin ardıcıl azad edilməsi hamımızda Şuşanın da işğaldan mütləq qurtulacağına şəksiz ümidi artırırdı. Şəhərin doğmalarına qovuşacağı gün həsrətlə gözlənilirdi. Düzünü deyim ki, bu məsələdə bəzən “amma”lar, “bəlkə”lər barədə də danışılırdı. Bu şübhələrə Prezident İlham Əliyev Türkiyə mediasına verdiyi müsahibələrin birində son qoydu, “Şuşa azad edilmədən bu əməliyyat tamamlanmış sayılmaz, yarımçıq qalar” - söylədi. Ali Baş Komandan bu sözləri ilə Şuşa həsrətimizin sonuna lap az qaldığına işarə vurdu, qələbəyə yönələn ümid və əminliyimizi daha da artırdı.

Nəhayət, o gün gəldi – 2020-ci il noyabrın 8-i 29 il 6 ay işğal altında olan Şuşa azad edildi! Azərbaycan Prezidenti bu münasibətlə xalqa müraciət edib qala-şəhərin qəsbkardan xilası müjdəsini verdi. Ali Baş Komandan bu tarixin həyatında ən xoşbəxt günlərindən biri olduğunu bildirdi: “Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük qələbədir! Şəhidlərimizin, ulu öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan!..”

O gün Ali Baş komandan Fəxri xiyabanda qüdrətli dövlət xadimi Heydər Əliyevin, Şəhidlər xiyabanında şəhidlərimizin məzarlarını ziyarət etdikdən sonra xalqımıza çatdırdığı “Şuşa azad edildi” xəbəri bütün dünyaya ildırım sürətilə yayıldı.

O gün Ali Baş Komandan, Prezident İlham Əliyevin zəfər müjdəsi təkcə 2020-ci il sentyabrın 27-dən bu yana işğal altındakı torpaqlarımızın azad edilməsi ilə bağlı növbəti qələbə xəbəri deyildi, həm də dövlətimizin başçısının son 17 illik prezidentlik fəaliyyətinin sevinc, fərəh dolu bir gündə atanın – ümummilli lider Heydər Əliyevin – “Mən ona özüm qədər inanıram” etimadının oğul tərəfindən doğruldulması, ata vəsiyyətinə ləyaqətlə əməl edilməsi və ötən zaman kəsiyində yurd, torpaq uğrunda qanlarından-canlarından keçən şəhidlərimizin ruhları önündə hesabatı idi.

O gün qələbə təşnəli ordumuzun dünyanın ən güclü silahlı qüvvələri sırasında yer aldığının, əsgər və zabitlərimizin igidliyinin, cəsur və qorxmazlığının, quldur erməni birləşmələrinin isə “məğlubedilməz” mifinin, uydurmasının rüsvaycasına alt-üst edilməsinin təsdiqi idi.

O gün Prezident, Ali Baş Komandan İlham Əliyevin əsl siyasətçi, diplomat və sərkərdə fəaliyyətinin məntiqi nəticəsinin, Azərbaycan dövlətinin siyasi, iqtisadi və hərbi qüdrətinin nümayişinə çevrilən şanlı tarix idi.

Nəhayət, 8 noyabr 2020-ci il Azərbaycanın müasir müstəqil dövlət kimi qurulmasında və inkişafında müstəsna rolu olan qüdrətli dövlət xadimi Heydər Əliyevin ərazi bütövlüyümüzün bərpa olunması arzusunun gerçəkləşdiyi və narahat ruhunun şad olduğu gün, milli təqvimdə heç zaman unudulmayacaq qürurlu bir səhifənin yazılması tarixi idi. 8 noyabr 2020-ci il 20 Yanvar, 20 Noyabr, Xocalı, I və II Qarabağ müharibəsi şəhidlərinin müqəddəs ruhlarının uzun bir zamandan sonra rahatlıq, dinclik tapdığı və həm də Laçın, Kəlbəcər və Ağdamın işğaldan qurtulacağı günün “bir nəfəs qədər yaxın” olacağından xəbər verən tarix idi.

***

Cəlbedici aurası, sehrli havası olan Şuşaya qədəm qoyan andan onun daşı-torpağı adama doğmaları tək əziz, mehriban görünür. Cıdır düzünə üz sürtəndə, Xan qızının çeşməsindən su içəndə, məscidləri ziyarət edəndə adam özündə bir yüngüllük, rahatlıq tapır.

Qələbədən sonra ikinci baharını yaşayan Şuşanın yamaclarında, getdicə çoxalan cığırların sağ-solunda ləçəkləri şeh dolu dağ çiçəkləri Cıdır düzünə, Xan qızı bağına, qala divarlarına xüsusi gözəllik verir. Şəhərdə aparılan bərpa-quruculuq işləri təbiətin bu gözəlliyi ilə ahəngdarlıq təşkil edir. Ermənistanın 30 ilə yaxın bir zaman ərzində viranəyə çevirdiyi, əzəmət və gözəlliyini zədələdiyi bu məkana yenidən təmizlik və paklıq gətirilir, qala-şəhər yenidən öz cah-cəlalına qayıdır. Burada festivallar keçirilir, beynəlxalq tədbirlər təşkil olunur. Davamlı olaraq səslənən, dağda-dağda əks-səda verən musiqi sədaları ruhları dirçəldir. Bütün bunlar Qarabağın, Şuşanın sabahının, gələcəyinin daha xoşbəxt olacağından xəbər verir.

...Şuşadan– illər uzunu erməni faşizminin qurbanına çevrilmiş tarixi, mədəni abidələrinə yenidən “nəfəs” verilən, tikilən, qurulan bir şəhərdən bir günlük görüşdən asanlıqla necə ayrılasan?! Bir çox müqəddəs ocaqların, mədəniyyət və incəsənətimizin böyük simaları Üzeyir bəy Hacıbəylinin, Xurşidbanu Natəvanın, Bülbülün ev-muzeylərinin, görkəmli şair Molla Pənah Vaqifin məqbərəsinin ziyarətindən doymasaq da, ürək rahatlığı, könül xoşluğu ilə, qala-şəhərin bundan sonra hələ nə qədər sevinc dolu günlərinə qovuşacağım ümidi ilə ayrılıb geriyə– Bakıya dönürəm...

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***

**Bakı–Şuşa–Bakı**